# MAHİRƏ NAĞIQIZININ DAŞ NAĞILI

Tariximizi vərəqlədikdə görürük ki, Azərbaycan qadınları həmişə xalqın tərəqqisində həmişə fəal rol oynayıblar. Onlar gözəllikləri, nəcib əməlləri, ağıl və zəkaları ilə təkcə nümunəvi ailə kultu yaratmayıblar, igid oğullar, qızlar tərbiyələndirməklə yanaşı, milli mənəviyyatın, sosial əxlaqın formalaşması və sağlam, uzaqgörən idarəçilik işinə də öz töhfələrini vermişlərÖz fədakar əməyi, fəal ictimai mövqeyi, filologiyamızda orijinal yeri olan belə qadınlardan biri də filologiya elmlər doktoru, professor,əməkdr müüəllim, şair Mahirə Nağıqızı Hüseynovadır.

Mahirə Hüseynova 1960-cı ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan rayonunun (indiki Babək rayonunun) Sust kəndində anadan olub. Ailə vəziyyət ilə bağlı Xalxal kəndinə köçmüş, 1968-ci ildə Xalxal kənd səkkizillik məktəbin birinci sinfinə daxil olmuşdur. Yaşayış yerini yenidən dəyişməklə əlaqədar olaraq, 1978-ci ildə Abşeron rayonu Mehdi Hüseynzadə adına Novxanı qəsəbə 1 saylı orta məktəbi bitirmişdir. 1980-ci ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU-nun) filologiya fakültəsinə qəbul olmuşdur. Təhsil aldığı illərdə öz fəallığı ilə seçilmiş, fakültədə keçirilən bütün tədbirlərdə iştirak etmiş, tələbə və müəllim heyətinin dərin rəğbətini qazanmışdır. 1984-cü ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildən də təyinatla əvvəlcə Abşeron rayonu Mehdiabad qəsəbə 1 saylı orta məktəbdə, sonra isə Bakı şəhəri N.Nərimanov rayonu G.Əsgərova adına 43 saylı MLK-da ixtisası üzrə işləmişdir. Bu illərdə Təhsil Nazirliyi tərəfindən "Respublikanın qabaqcıl təhsil işçisi" adına layiq görülmüş, döş nişanı ilə təltif olunmuşdur. 2003-cü ildə isə "İlin nümunəvi müəllimi" Respublika müsabiqəsinin qalibi olmuş, I dərəcəli diplom almışdır. 2009-cu ildən ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müəllimidir. "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" adlı dissertasiyasını 2012-ci ilin yanvarında uğurla müdafiə etmiş, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. 2015-ci ilin mayında Müasir Azərbaycan dili kafedrasının dosenti vəzifəsinə seçilmişdir. 2015-ci ilin dekabr ayında Müasir Azərbaycan dili kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 2013-cü ildən "XIX-XX əsr Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətləri (Dərələyəz mahalı üzrə)" mövzusunda araşdırmalar aparmış, mar naqlı nəticələr əldə etmişdir. Dissertasiya işi müzakirələrdən uğurla çıxaraq müdafiəyə təqdim olunmuşdur. Mahirə Nağıqızı Hüseynova (Nağıyeva) 2017-ci il 2 mayda AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda yüksək səviyyədə müdafiə etmiş və 2017-ci ildə filologiya üzrə elmlər doktoru elmi dərəcəsini almışdır.

Professor Mahirə Nağıyeva həm də ADPU-nin Beynəlxalq Əlaqələr üzrə prorektoru və dekan əvəzidir. Hal-hazırda bu sahədə də böyük nailiyyətlər əldə edir.

Cənab president İlham Əliyev ADPU-nun 100 illiyi ilə əlaqədar universitetin bir sıra müəllimlərini fəxri adla təltif etdi. Eyni zamanda Mahirə xanımın elmi-pedaqoji əməyi dəyərləndirildi və "Əməkdar müəllim" fəxri adına layiq görüldü. Mahirə Nağıqızı 2021-ci ildə İraq Kərkük Türkmən Yazarlar Birliyinin üzvü seçilib.

Profesor Mahirə Nağıqızı neçə illərdir ADPU-nun filologiya fakultəsinə rəhbərlik edir. Onun fakultəyə dekan təyin olunmasından sonra fakultədə tədrisin keyfiyyəti xeyli yüksəkdi. Fakultənin AAK-ın rəyasətində dərc edilən elmi dərgisi çıxmağa başladı. Mahirə xanım fakultədə ədəbi dərnəyə rəhbərlik edir. Tələbələrin içində bədii yaradıcılığa meyli olan həvəskarların qələmə aldıqları nümunələr çap olunur. Mahirə xanım onlara tövsiyələr verir, yaradıcılığa ruhlandırır.

Mahirə xanım saf insandır, Allah adamıdır. O, hansı mövzuda yazır yazsın, kidmən, nədən, hardan yazır-yazsın, yalnız həqiqəti yazır. Onun əsərlərində zərrə qədər də yalan yoxdur. Yaradıcılığı da varlığı kimi pak, təmiz və ülvidir. Mahirə xanımın bir insan və şəxsiyyət kimi ali keyfiyyətləri, milli-mənəvi dəyərlərə bağlılığı, vətənpərvərliyi, insanseverliyi onun yaradıcılığının leymotivdir.

Vətənə, xalqa, millətə, dövlətçiliyə, milli soykökə bağlılıq onun yaradıcılığının hər səhifəsində təcəssüm olunur. İstər publisistikası, istər nəsri, istərsə də poeziyası xalq, torpaq, vətən sevgisi ilə yoğrulub.

O, ilk dəfə olaraq Qərbi Azərbaycanın Dərələyəz mahalının aşıq və el şairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətlərini araşdırmış, elmi-ədəbi nəticələr əldə etmişdir.

Mahirə xanım orta məktəbdə oxuduğu illərdən şeir yazıb. Xüsusən də onun bədii yaradıcılığı ali məktəbdə oxuduğu illərdən ardıcıl şəkil alıb və respublikanın müxtəlif mətbuatında dərc edilib, ayrıayrı nəşriyyatlarda 20-yə yaxın şeir kitabı çap olunub. Bunlardan "Mənim anam", "Su at dalımca, ana", "Ana sevgisindən doğan nəğmələr", "Yaşadacaq anam məni", "Ana kəndim Xalxalım", "Ömrün çıraqdır sənin", "Sözün hikməti", "Analı dünyam", "Haqqa çağıran səs", "Bayatılar", "Bayatılar və üç şeir", "Ruhuna beşiksə, tanı, Vətəndir" və s. kitab və topluları göstərə bilərik.

"Ruhuna beşiksə, tanı, Vətəndir" kitabı hələlik onun sonuncu şeir toplusudur və buna seçilmiş əsərlər də demək olar. "Ruhuna beşiksə, tanı, vətəndir" şeirlər kitabı Mahirə xanım haqqında, onun şeirləri, poetik tərənnümü barədə dolğun təsəvvür yarada bilir...

Ümumilikdə, Mahirə Nağıqızının şeir yaradıcılığına nəzər saldıqda yetirəndə aydın görünür ki, onun lirik qəhrəmanı zamanın, günümüzün, hisslərimizin ən ağır və dərdli məzmununu özündə əks etdirir. Şairənin "lirik "Mən"i qəlbinin hökmü ilə nə-




fəs alır, düşünür, sevinir. Düşüncələr daha çox hər an pünhan qalmış sirləri açmağa hazırdır. Burada sevginin tərənnümündən çox, insanın iç dünyasının iztirabları önə çıxır. Bu da təsadüfi deyil, bütün bunlar mənən iztirab və əzab çəkmiş insanın artıq gizli saxlaya bilmədiyi duyğularının sözdə poetikləşən müxtəlif çalarlarıdır:

O da dağ, bu da dağ, ayrı-ayrıdı,
Çayını aparan dərəsi birdi.
Yalında gözləyə, yan-yörəsində
Yüz ovçu dayana, bərəsi birdi.
Kimdi ox olanı, kimdi yay çəkir,
Kimdi qazan asan, kimdi pay çəkir?
Neçə min ildir ki, ərlər hay çəkir,
Dərdləri cürbəcür, nərəsi birdi. ("Birdi")

Mahirə xanıma bu istedad professor, böyük dilçi alim, ictimai xadim, folklorşünas Həsən Mirzədən və anası, el ağbirçəyi, sinəsi bayatılarla dolu olan Nazlı anadan keçib.

Mahirə Nağıqızı həm də nəğməkar şairdir. Bəstəkarların onun sözlərinə bəstələdiyi onlarla mahnılar müğənni və xanəndələrimiz tərəfindən sevilə-sevilə oxunur. Eləcə də çağdaş aşıqlaqımız Mahirə xanımın qoşmalarına repertuarlarında mühüm yer verirlər. Əməkdar artist, xanəndə Elnur Zeynalov Mahirə Nağıqızının sözlərinə ürəyəyatan mahnılar bəstələyib. Onların birini də sevilən gənc xanəndəmüğənni Almaxanım Əhmədli şövqlə oxuyur. "Sən olaydın" adlanan nəğmə tamaşaçılar tərəfindən rəğbətlə, məhəbbətlə qarşılanır.

Mahirə Nağıqızı zəngin yaradıcılığı öz şəhdini, şirəsini xalqımızın minilliklər boyu yaşatdığı milli folklorumuzdan almış, ona yeni rəng, yeni nəfəs, yeni ruh qataraq çağdaş dövrümüzün söz xəzinəsində əbədiyyət qazandırmışdır.Şair əsrlərdən süzülüb gələn qədim adət -ənənələrə söykənərək, milli kimliyimizi, mənəvi-əxlaqi dəyərlərimizi, xalqımızın mübarizələrlə dolu qəhrəmanlıq salnaməsini öz poetik dünyasında qərarlaşdırmış, fəlsəfi məzmun və mündəricəyə malik olan yüksək tendensiyalı əsərlər yaradaraq oxucuların ixtiyarına vermişdir.

Şairin çoxşaxəli yaradıcılığında Vətənin hər gülü- çiçəyi, ağacı-daşı, dağı-dərəsi, büllur bulaqları, kükrəyən çayları Azərbaycanın ekvivalenti anlamını ifadə edən müqəddəs bir məkan kimi simvollaşdırılır. Onun vətən sevgisi bitib- tükənməyən, sonsuzluğa qədər davam edən ən ali, ülvi hisslərin məcmusuna çevrilir:

Bitər sərhədlərin bu yer üzündə,
Qəlbimdə sərhədin nədən bitmədi?
Gəlmisən, üzürsən eşq dənizində,
Sənə məhəbbətim, Vətən, bitmədi.

Şair özünü bir an da olsa, vətəndən ayrı təsəvvür etmir. Qürbətdə yaşamağın mümkünsüzlüyünü etiraf etməklə sanki şaxtadan, qardan donmuş zərif bir çiçəyin taleyini gözlərimiz qarşısında canlandırır. Vətən məhəbbətinin böyüklüyünü, əvəzolunmazlığını izhar etmək üçün ana yurdun bir qarış torpağının istisinə sığınmağın insana səadət və xoşbəxtlik gətirdiyini yüksək poetikliklə əks etdirir :

Haraya getsəm də, Vətən, ay Vətən,
Könlümdə ruhunun var, havası var.
Ayrılıqdı bilməm, xiffətdi- bilməm,
Sənsiz hər tərəfdə qar havası var.

Köksündə dondurmaz ayazı qışın,
İstisi bəsimdi bircə qarışın.
Qürbətdə küləyin, yağan yağışın,
Səsində bir ahu-zar havası var.

Erməni vandallarının əsrlərdir Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti, otuz il düşmən əsirliyində qalan doğma Qarabağımızın talan edilməsi, yağı tapdağı altında inləməsi şairdə acı təəssüf hissi doğurur, lakin insana ümidsizlik təlqin etmir. Şair vətəni, ana yurdu və onun timsalında xalqımızı, vətən övladlarını məğrurluğa, əyilməzliyə səsləyir:

Qan axan yarana gözüm yaşını
Dərman əvəziydi, səpələdim mən.
Bu da bir sınaqdı, əymə başını,
Sınıq əhvalına dözə bilmərəm.

Mahirə Nağıqızının "Sən döyüşə hazır ol" şeiri Azərbaycan xalqını bir ideya ətrafında birləşməyə, düşmənlərə qarşı eyni mövqedən çıxış etməyə istiqamətləndirən səfərbərlik çağırışıdır. Şeirdə Azərbaycan əsgərinin qəhrəmanlığına, şücaətinə, məğlubedilməzliyinə böyük ümidlər bəsləyən, onun gücünə, qüdrətinə güvənən xalqımızın məğrur və təəssübkeş ziyalısının qəlbində əbədi və əzəli torpaqlarımızın azad olunacağına dərin inamı ifadə olunmuşdur:

Azərbaycan əsgəri, yolun Şuşaya gedər,
O yürüşün naminə son döyüşə hazır ol!
İntizarda Laçındı, Zəngilandı, Kəlbəcər,
Pir görüşün naminə, son döyüşə hazır ol!

Sən vətənin gücüsən, vətənin əsgər oğlu,
Vətən haya çağırmaz, haraylamaz hər oğlu.
Qızlar gül- çiçəyiylə süslər müzəffər oğlu,
O gəlişin naminə, son döyüşə hazır ol!

*(Davamı var)*

***Vüqar Əhməd***
***AMEA Nizami Gəncəvi adına***
***Ədəbiyyat İnstitutunun***
***Mətbuat tarixi və publisistika şöbəsinin müdiri,***
***filologiya elmləri doktoru,***
***professor.***

***Gülbəniz BABAYEVA,***
***AMEA Nizami Gəncəvi adına***
***Ədəbiyyat İnstitutu***
***Mətbuat tarixi və publisistika şöbəsi,***
***aparıcı elmi işçi,***
***filologiya üzrə fəlsəfə doktoru***